*S.İbrahimov. Nəsimi yaradıcılığında peyğəmbər və əhli-beyt fəlsəfəsi*
*// Əlyazmalar yanmır, 2019, № 2 (9), s. 260-265.*

UOT: 82; 297

**Səbuhi İbrahimov**
*fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*
*AMEA Naxçıvan Bölməsi*
*Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, 76*
*e-mail: s.ibrahimov71@mail.ru*

# NƏSİMİ YARADICILIĞINDA PEYĞƏMBƏR VƏ ƏHLİ-BEYT FƏLSƏFƏSİ

*Məqalədə öz zəngin fəlsəfi əsərləri ilə tanınan görkəmli Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsimi irsinə nəzər yetirilmiş və onun qələmə aldığı dəyərli əsərləri haqqında məlumat əldə edilmişdir. Onun fəlsəfi irsinin öyrənilməsi ilə yanaşı bir çox maraqlı detallar da təhlil edilərək aşkar olunmuşdur.*

*Araşdırmalarda məlum olmuşdur ki, Nəsimi yaradıcılığının ən mühüm xüsusiyyətlərindən biri peyğəmbər və əhli-beyt fəlsəfəsidir. Şair şeirlərində bu maraqlı məqamlara nəzər yetirmiş və onun özəlliklərin, eyni zamanda dərin məna çalarların nəzmə çəkmişdir.*

***Açar sözlər:*** *Nəsimi, peyğəmbər, əhli-beyt, fəlsəfə, əlyazma, əsərlər.*

## Giriş

*Əlyazma əsərləri ilə Azərbaycan mətnşünaslıq elmini zənginləşdirən XIV əsrin sonu XV əsrin əvvəllərində yaşamış böyük Azərbaycan şairi və filosofu Seyid İmadəddin Nəsiminin (1369-1417) şəxsiyyəti və əsərləri bütün Yaxın Şərq ölkələrində məşhur olmuşdur. Azərbaycan, fars və ərəb dillərində zəngin fəlsəfi əsərlər yaradan fədakar şair Nəsiminin poeziyası yalnız öz doğma ədəbiyyatına deyil, türk, fars, özbək, türkmən klassik ədəbiyyatına da güclü təsir göstərmişdir. Onun zəngin fəlsəfi əsərləri hələ XVI əsrdən başlayaraq Şərq xalqları içərisində sürətlə yayılmağa başlamışdır.*

Görkəmli mütəfəkkirin qədim əlyazma əsərləri divan halında, müxtəlif əlyazmaları, cüng və bayazlarda dünyanın və Şərq ölkələrinin müzey və kitabxanalarında mühafizə olunur və saxlanılır. Nəsimi divanının Türkiyə kitabxanalarında saxlanılan qədim əlyazma nüsxələri haqqında isə 1928-ci ildə Bakıda çap olunmuş "Azərbaycan ədəbiyyatı tarixi" adlı kitabının 185-ci səhifəsində türk tədqiqatçısı İsmayıl Hikmət qısa da olsa məlumat vermişdir. O yazır:

"Nəsimi divanının ... tam bir nüsxəsi İstambulda Kitabxaneyi-ümumidə olduğu kibi, (909) tarix hicrisində (1503) Sultan Əhməd hərəvi xəttilə nəfis bir təliq ilə yazılmış, bir nüsxəsi də Əya Sofiya kitabxanasındadır. Bir nüsxəsi də Fatehdə Əli Əmiri əfəndinin «Millət kitabxanası»ndadır. Nəsiminin öz əliylə yazılmış bir divanının da Ərzurumda Cənnətzadə kitabxanasında bulunduğu rəvayət edilməkdədir" (6, s. 185).

Türkiyə kitabxanalarında saxlanılan Nəsimi divanının 4 əlyazması haqqında xəbər verən İsmayıl Hikmət şairin divanındakı əsərlər haqqında ümumi bir şəkildə bu qədər məlumat vermişdir.

Görkəmli şair, eyni zamanda böyük şəxsiyyət, filosof Nəsiminin bizə məlum olan əsərləri divan halında Türkiyədə üç dəfə - 1260 (1844), 1288 (1871) və 1298 (1880)-ci illərdə mətbəə üsuli ilə İstambulda çap edilmişdir. Lakin bu nəşrlərin heç biri böyük şairin əsərlərini tamamilə əhatə etmir; islah və təkmil oluna-oluna çap edilməsinə baxmayaraq, divanın bu nəşrləri yenə də nöqsansız deyildir.

"Nəsiminin divanı ilk dəfə Bakıda 1926-cı ildə Səlman Mümtaz tərəfindən çap edilmişdir" (6, s. 185). Lakin S.Mümtaz bu kitabın nəşri zamanı şairin heç bir divan əlyazma nüsxəsini görə bilməmiş, müxtəlif cüng və bayazlardan topladığı şeirlər və Türkiyə nəşrlərindən istifadə etmişdir. O, özü bu haqda kitabın müqəddiməsində belə yazmışdır:

"Nəsiminin külliyati-asari əldə deyildir. Çox ola bilər ki, tamamilə məfqud olmuşdur...

Bizim əlimizə keçən şeirlər də dürlü-dürlü yazma cüng və bayazlardan toplanılan farsi və türki şeirlərdir ki, onların və mətbu nüsxənin yekununda işbu kitabça meydana çıxa bilmişdir. Nəsiminin öz əsrində Azərbaycan dilində yazılmış miniatürlü bir divanı da mövcud imiş ki, o qocaman divandan yalnız 10 səhifə əlimizə keçmişdir" (9, s. 9).

İmadəddin Nəsimi Allah-Təalanın bir olduğunu öz qəlbində uca tutaraq vəsf edir və deyir:

"Kaf" ilə "Nun"dan yaratdın on səkkiz min aləmi,
Qüdrətindən ərbəin gündə təmam oldu cəsəd.
Seyyidin könlündəsən Səndən özgə nəisə yox,
Həm dilində bu fəqirin daim edər ya Əhəd (3, s. 108).

Həmçinin Nəsimi yaradıcılığında peyğəmbər və Əhli-beytinə fəlsəfi yanaşmalar göstərir ki, Allah-Təala yanında Onun göndərdiyi sonuncu nəbi və peyğəmbər vəsisi həzrət Əlini yüksək qiymətləndirərək deyir:

Eşq əhli ölməz, yerdə çürüməz,
Yanmayan bilməz, atəşi-eşqə.
Seyyid Nəsimi, tərk et bu rəsmi,
Yandırdı cismi, atəşi-eşqə.
Fəxri-cahandır Mustəfa,
Gündən əyandır Murtəza (3, s. 82).

Şairin şeirlərində rast gəldiyimiz digər bir maraqlı fəlsəfi məqam isə onikinci imamın pişivazlığıdır:

Şahe-salar cahandır əskəri həm cümləyə,
İbn Hadi pişivadur, pişivadur, pişiva.
Cani-dildən Müstəfa və Mürtəza məddahiyəm,
Həm bu oniki İmama oxuram mədhu səna.
Xanidan Mustəfani sevməyən məlunlara,
Oxuram bihəddi ğayət ona lənət daima.
Ey Nəsimi həşr və nəşrin cami sən camii,
Övlüyanın sirri sənsən ənbiya və övlüya (3, s. 40-41).

Həzrət Əlini mədh edən şair, həm onun sultanlığın, rizvanlığın, iymanlığın və nurunun olmasını, həm də onun igid və qəhrəmanlığına xüsusi nəzər salmağı olmuşdur:

Əli sübhan, Əli sultan,
Əli cənnət, Əli rizvan.
Əli dindir, Əli iyman,
Əlidir mir hər ləşgər.

***

Nəsiminin deli-canı,
Münəvvərdir Əli nuri.
Əli Vəli Əliyyu illa Əli,
Səruri Əli Səfdər.

***

Əlidir cinni bəşər hər can,
Əlidir can deli-mehiman.
Əli rahim, Əli rəhman,
Əlidir cümləyə rəhbər (3, s. 245).

Nəsimi düşüncəsini cəlb edən əsas məqamlardan biri də Məhəmməd əleyhis-salamın "Merac" aləmlərinə getdiyi zaman onun qapısında həzrət Əlinin Allahın şiri olduğunu və "Sidrətül-müntəha" məqamında onun sonsuzluğunu gördüyü bir daha diqqəti cəlb etmişdir. Şair bu parçada böyük fəlsəfi terminləri diqqətə alaraq deyir:

Məhəmməd nitqiylə oldum,
Ki, meraca uruc etdi.
Mən əvvəl həzrət qapısında,
Əli şiri Xuda gördüm.

***

Üzündən pərdə rəf oldu,
Çu şəksiz zatımış mütləq,
Mən sidrə məqamında,
Əliyyi müntəha gördüm.

***

Yenə Şahi-vilayətdən,
İki şahzadə nur oldu,
Biri zəhrə rza verdi,
Birin dər Kərbəla gördüm (3, s. 558).

Şair "Şahi-vilayət" deyəndə həzrət Əli vilayətini, həmçinin onu və ümumiyyətlə 12 imamın imamlığını qəbul edənləri nəzərdə tutur. Digər tərəfdən isə həzrət Əlinin iki oğlu imam Həsən (ə) və imam Hüseyn (ə) kimi şahzadələrin həyatında baş verəcək hadisələr; birinin zəhərlə, birinin isə Kərbəlada faciəvi şəkildə şəhid edilməsi diqqətdən yayınmamışdır.

İmadəddin Nəsimi yaradıcılığında peyğəmbər və Əhli-beytinə fəlsəfi yanaşmalar olduqca müxtəlifdir. Belə ki, şair tarixi köklərə qayıdaraq öz nəzəri fikirlərini və islamda xüsusi yeri olan həzrət Əli məqamını yüksək qiymətləndirərək belə qeyd edir:

Gözünü aç gör ey Talib,
Əlidir hər du günə sərvər.
Məhəmməd eşqi dəryadır,
Əlidir qiyməti gövhər.

***

Məhəmməd elmə kan oldu,
Əli nitqi-bəyan oldu.
Ona sirlər əyan oldu,
Əlidir xaceyi-Qənbər.

***

Əlidir cümlənin canı,
Məhəmməddir onun kanı.
Həqiqətdir onun şanı,
Əlidir yari peyğəmbər.

***

Nə bilsin cahili-nadan,
Məhəmməd ya Əli kimdir.
Məhəmməd sahibi dindir,
Əlidir cümlədən behtər.

***

Əlidir əvvəli-Vəliyyullah,
Əlidir Məzhərüllah.
Əlidir cümləyə rəhmət,
Əlidir şafei-məhşər (3, s. 558).

Şair digər beytlərində peyğəmbər və əhli-beyt fəlsəfəsinə daha geniş şəkildə yanaşaraq onun əsl mahiyyətini vəsf etmişdir:

Mən qulami xanedanam, padişahımdır Əli,
Ehtiyacım var ona, püşdü-pənahımdır Əli,
Könlümü qıldı münəvvər, mehimanımdır Əli,
Qibləgahımdır Mühəmməd, səcdəgahımdır Əli.

***

Gəldilər həqdən bəyanə sirri ağaz etdilər,
Sözləriylə bu cahan mülkinə pərvaz etdilər,
Həmdüllah biz gədanı məhrəmi raz etdilər,
Qibləgahımdır Mühəmməd, səcdəgahımdır Əli.

***

Ta əzəldən padişahımdır Həsən xülqi-rza,
Dünyavi üqbəda sərtacım Hüseyni Kərbala,
Nuri çeşmimdir İmam Zeynul-İbad,
Qibləgahımdır Mühəmməd, səcdəgahımdır Əli.

***
Canu dildən bəndeyi Baqir qulami Cəfərəm,
Museyi-Kazıma və İmam Rzaya kəmtərəm,
Şah Təqi Baba Nəqi yolunda paki-bəstərəm,
Qibləgahımdır Mühəmməd, səcdəgahımdır Əli.

***
Masəva tərk eyləyib bizləri diyari ləhlətə,
Hakim onlardır bu gün layiq dir onlar hörmətə,
Lah deyənlər uğrayırlar bu cahanda möhnətə,
Qibləgahımdır Mühəmməd, səcdəgahımdır Əli.

***
Cümləmiz arzu edənlər Əskəriyyə əsgərüz,
Mehdiyi-Sahib Zamana biz təvəlla eyləriz,
Həmdüllah eylə, ey Nəsimi, biz yolunu gözləriz,
Qibləgahımdır Mühəmməd, səcdəgahımdır Əli (5, s. 320-321).

**Nəticə**

*Nəticə etibarilə belə qənaətə gəlmək olar ki, Nəsimi yaradıcılığında peyğəmbər və əhli-beyt fəlsəfəsi nə qədər dərin mənaları özündə əks etdirir. Belə ki, hər bir sözün, kəlmənin və beytin fəlsəfi məzmunu öz mahiyyəti ilə insanı özünə cəlb edir. Güman edirik ki, Nəsimi yaradıcılığı bundan sonra da geniş tədqiqat obyektinə çevriləcək və onun həm fəlsəfi irsinin öyrənilməsi, həm də həyat fəaliyyəti dərindən təhlil ediləcəkdir.*

**Ədəbiyyat siyahısı:**


1. نسيمى "ديوان" . İnstitut Rukopisey AN Qruz. SSR, inv. № R-599.
2. نسيمى "ديوان" . Sank-Peterburq: İnstitut narodov Azii, inv. №1246a, 53 və R B, 1810 əlyazma nüsxələri.
3. İmadəddin Nəsimi. Əsərləri, 3 cilddə, Icild. Bakı: Elm, 1973, 572 s.
4. İmadəddin Nəsimi. Əsərləri, 3 cilddə, IIcild. Bakı: Elm, 1973, 646 s.
5. İmadəddin Nəsimi. Əsərləri, 3 cilddə, IIIcild. Bakı: Elm, 1973, 367 s.
6. İsmayıl Hikmət. Azərbaycan ədəbiyyatı tarixi. Bakı: 1928, səh. 185.
7. Qəhrəmanov C.B. Nəsimi leksikasının bəzi xüsusiyyətləri. // Əlyazmalar xəzinəsində. III cild. Bakı: 1972, s. 39-45
8. Məmmədov Ə. Nəsiminin iki qədim əlyazma divanı. // Əlyazmalar xəzinəsində. III cild. Bakı: 1972, s. 53-57
9. Seyyid İmaddədin Nəsimi, Bakı: 1926, 549 s.



**Сабухи Ибрагимов**

**Философия пророка и его семьи в творчестве Насими**

В статье сделан обзор наследия видного азербайджанского поэта и мыслителя Имадеддина Насими, известного своими богатыми философскими трудами, и получены сведения о написанных им ценных произведениях. Наряду с изучением его философского наследия выявлен и проанализирован ряд интересных деталей.

В ходе исследования выявлено, что одной из важнейших особенностей творчества Насими является философия пророка и его семьи. Поэт в своих стихотворениях уделял

внимание этим интересным моментам и увековечил их своеобразие и глубокие смысловые оттенки.

***Ключевые слова:*** *Насими, пророк, семья, философия, рукопись, произведения*

**Sabuhi Ibrahimov**

**The philosophy of the prophet and his family in Nasimi's works**

The paper reviews the heritage of Imadeddin Nasimi, the prominent Azerbaijani poet and thinker, famous for his rich philosophical works and information about the valuable works written by him has been obtained. Along with the study of his philosophical heritage, a number of interesting details have been identified and analyzed.

The study has revealed that one of the most important features of Nasimi's works is the philosophy of the prophet and his family. The poet paid attention in his poems to these interesting moments and immortalized their originality and deep semantic shades.

***Keywords:*** *Nasimi, prophet, family, philosophy, manuscript, works*

Redaksiyaya daxil olma tarixi: 18.11.2019
Çapa qəbul olunma tarixi: 05.12.2019

AMEA-nın müxbir üzvü, filologiya üzrə elmlər doktoru, professor
**Əbülfəz Quliyev** tərəfindən çapa tövsiyə olunmuşdur.